www.amu.edu.az

TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-16 (1842) 30 sentyabr 2026-cı il



Universitetimizin kollektivi Zəfər Parkını ziyarət edib

Anım Günündə şəhidlərin əziz xatirəsi dərin ehtiramla yad olunub

səh. 2

Ümumdünya Ağciyər Gününə həsr olunmuş aksiya keçirilib

səh. 2

Yeni tədris modeli: Anatomiya və Radiologiya bir mühazirədə birləşdi

səh. 2

Elmi fəaliyyətə dair hesabatlar elektronlaşdırılır

səh.4



Böyük Elmi Şuranın yeni tədris ilində ilk iclası keçirilib

Təhsilin təkmilləşdirilməsi üzrə 1 illik və 5 illik strateji fəaliyyət planlarının hazırlandığı diqqətə çatdırılıb

səh. 3

ATU-nun professoruna yüksək etimad

Vüqar Məmmədov yenidən Ümumdünya Tibbi Hüquq Assosiasiyasının baş katibi seçilib

səh. 4

Əhəmiyyət vermədiyimiz şikayətlər ciddi problemlərin göstəricisi ola bilər

Mütəxəssis COVID-19 pandemiyasından sonra endokrinoloji xəstəliklərə daha çox rast gəlindiyini deyir

səh. 7



Tələbə Həmkarlar İttifaqı Komitəsi geniş imkanlar təqdim edir

THİK tələbələrin hərtərəfli inkişafına yönəlmiş çoxşaxəli fəaliyyət həyata keçirir

səh. 5

ATU-nun kollektivi Zəfər Parkını ziyarət edib

Anım Günündə şəhidlərin əziz xatirəsi dərin ehtiramla yad olunub



27 Sentyabr – Anım Günü ilə əlaqədar Azərbaycan Tibb Universitetinin kollektivi Zəfər Parkında yerləşən xatirə kompleksini ziyarət edib.

Rektor, professor Gəray Gəraybəyli başda olmaqla universitetin rəhbərliyi, professor-müəllim heyəti, əməkdaşlar və tələbələrin iştirak etdiyi ziyarət zamanı Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub. Xatirə kompleksinin önünə tər çiçəklər düzülüb.

Universitetimizin kollektivi şəhidlərimizin əziz xatirəsinə sonsuz ehtiramını bir daha ifadə edərək, Vətən uğrunda canından keçən qəhrəmanların irsinə sədaqətini nümayiş etdirib. Şəhidlərimizin göstərdiyi misilsiz fədakarlıq xalqımızın milli yaddaşında əbədi yaşayacaq!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Anım Günü ilə əlaqədar silsilə tədbirlər təşkil olunub



27 Sentyabr – Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin, o cümlədən şəhid tələbələrimizin əziz xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilib.

Tədbirlərdə Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib, onların şərəfli döyüş yolu, göstərdikləri fədakarlıqlar haqqında məlumatlar verilib. Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev qəhrəmanlarımızın əziz xatirəsinin daim uca tutulmasının hər bir azərbaycanlının mənəvi borcu olduğunu bildirib. Qeyd edib ki, şəhidlərimizin qəhrəmanlığı Azərbaycan Ordusunun şəxsi heyəti üçün örnəkdir.

* * *

ATU-nun ərazisindəki xatirə lövhəsinin qarşısında keçirilən mərasimdə iştirakçılar şəhidlərin əziz xatirəsinə ehtiramlarını ifadə edib, gül dəstələri düzüblər.

Uşaq cərrahiyyəsi kafedrasının assistenti Namiq Xəlilov çıxış edərək Zəfərin qəhrəmanlarına dərin ehtiramın hər birimizin mənəvi borcu olduğunu qeyd edib. Həmçinin Vətən uğrunda canından keçən qəhrəmanların xatirəsinin əbədiləşdirilməsi, onların keçdiyi şərəfli döyüş yolunun gələcək nəsillərə çatdırılması istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətini vurğulayıb.

Tələbə Həmkarlar İttifaqı Komitəsinin də dəstək verdiyi tədbirlər çərçivəsində daha sonra universitetin müəllim və tələbə heyəti 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərin və xalqımızın qəhrəmanlığının rəmzlərindən biri olan Zəfər Parkını ziyarət edib.



27 Sentyabr – xalqımızın yaddaşına qəhrəmanlıq, birlik və Vətən sevgisinin rəmzi kimi həkk olunmuş şərəfli bir tarixdir. Bu gün Azərbaycan Tibb Universitetinin çoxminlik kollektivinin yaddaşında da xüsusi yer tutur. Çünki Vətən müharibəsində canını fəda edənlər sırasında universitetimizin yetirmələri – həkimlik sənətinə yiyələnmiş, bu müqəddəs peşənin məsuliyyətini dərk etmiş şəhid məzunlarımız da var.

Şəhid məzunlarımızın xatirəsi əbədi yaşayacaq



Onların xatirəsi universitetimizdə illərdir böyük ehtiramla yaşadılır. Universitet şəhərciyində şəhid məzunlarımızın xatirəsinə ucaldılmış abidə kompleksi də bu ehtiramın, sonsuz minnətdarlığın və unudulmaz yaddaşın ifadəsidir.

Abidə kompleksinin açılışı zamanı ATU-nun rektoru, professor Gəray Gəraybəyli 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsini tariximizin ən parlaq səhifələrindən biri kimi dəyərləndirərək, Azərbaycanın qazandığı Zəfərin xalqımız üçün böyük qürur mənbəyi olduğunu vurğulamışdı: "Azərbaycan xalqı öz liderinin – müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bütün dünyaya öz gücünü və mübarizliyini göstərdi. Həmin günlərdə Prezident İlham Əliyev müzəffər sərkərdə kimi yalnız hərb meydanında deyil, həm də diplomatik cəbhədə olduqca uğurlu fəaliyyət nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi. 44 gündə Azərbaycan Ordusu bütün dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri təkcə tanklarla, toplarla deyil, həm də ağılla və sarsılmaz inamla qazanmaq olar".

Sonu qalibiyyətlə bitən o tarixi gündən artıq altı il ötür. Altı il ərzində Zəfərimizin yaratdığı qürur hissi daha da möhkəmlənib. İşğaldan azad edilmiş torpaqlarımızda Böyük Qayıdışın təməli qoyulub, genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Qarabağın və Şərqi Zəngəzurun siması dəyişir, həyat yenidən bu torpaqlara qayıdır.

Lakin heç vaxt unutmuruq ki, bu Qələbə Vətən uğrunda canından keçən minlərlə şəhidimizin qanı, yaralananların ağrısı və bütün hərbçilərimizin böyük əziyyəti bahasına qazanılıb. Azərbaycanın 3 minə yaxın igid övladı torpaqlarımızın azadlığı uğrunda canını qurban verərək şəhidlik zirvəsinə yüksəlib, minlərlə hərbçimiz sağlamlığını itirib. Müharibənin ilk günündən etibarən tibb işçiləri də ön və arxa cəbhədə böyük fədakarlıq göstəriblər. Yaralı əsgərlərin həyatını xilas etmək, onlara tibbi yardım göstərmək, ağır döyüş şəraitində insan həyatına dayaq olmaq onların həm peşə, həm də vətəndaşlıq borcu idi.

Vətən müharibəsi zamanı 159 tibb işçisi yaralanıb, 42 tibb işçisi isə xidməti vəzifələrini yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Onların 9-u həkim, 7-si feldşer, 26-sı isə sanitar olub.

Bu rəqəmlərin hər birinin arxasında bir insan taleyi, bir ailənin yaşadığı ağır itki, bir ömrün yarımçıq qalmış arzuları dayanır. Həmin qəhrəmanların böyük bir qismi Azərbaycan Tibb Universitetinin məzunları idi. Onlar döyüş meydanında yalnız tibb işçisi kimi deyil, Vətənin əsgəri kimi də öz sözlərini dedilər.

Bu yaddaşın qorunması istiqamətində görülmüş mühüm işlərdən biri də "Təbib" qəzetinin redaksiya heyətinin təşəbbüsü və universitetin rektoru, professor Gəray Gəraybəylinin yaxından dəstəyi ilə hazırlanaraq nəşr olunan "Vətən səmasında ulduzdu şəhidlər" kitabıdır.

Şəhid məzunlarımızın əziz xatirəsinə həsr olunmuş kitabda 32 qəhrəmanın həyat hekayəsi öz əksini tapıb. Onların taleyi Azərbaycanın ən yeni tarixinin şərəfli səhifələri ilə bağlıdır. Bu 32 tələbə və məzun müxtəlif illərdə – 20 Yanvar faciəsində, I və II Qarabağ müharibələrində, eləcə də 2023-cü ilin sentyabrında - Azərbaycanın Qarabağda suverenliyini tam bərpa etdiyi antiterror əməliyyatı zamanı həyatlarını itiriblər.

İllər ötəcək, nəsillər dəyişəcək. Amma şəhidlərimizin adı xalqımızın yaddaşından heç zaman silinməyəcək. Azərbaycan Tibb Universiteti ailəsinin bütün üzvləri, xüsusilə tələbələrimiz şəhid məzunlarımızı daim ehtiramla xatırlayacaq, onların həyat və mübarizə yolunu gələcək nəsillərə çatdıracaqlar.

Universitetimizdə tədrisin müasir tələblərə uyğunlaşdırılması məqsədilə yeni təşəbbüsə başlanılıb. Belə ki, ilk dəfə İnsan anatomiyası və tibbi terminologiya kafedrası ilə Radiologiya kafedrası arasında inteqrativ tədris modelinin tətbiqinə, birgə mühazirələrin təşkilinə start verilib.

Yeni tədris modeli: Anatomiya və Radiologiya bir mühazirədə birləşdi



Yeni tədris yanaşmasının əsas məqsədi tələbələrin anatomiya üzrə nəzəri biliklərini radioloji görüntülər və praktik yanaşmalarla əlaqələndirərək, tam şəkildə mənimsəməsinə imkan yaratmaqdır. Belə inteqrasiya ayrı-ayrı fənlər üzrə əldə olunan biliklərin qarşılıqlı əlaqədə təqdim edilməsinə və tələbələrin nəzəri-praktik düşünmə bacarıqlarının inkişafına şərait yaradır.

Birgə mühazirələr zamanı müasir tibbi texnologiyaların, o cümlədən rentgen və digər radioloji imkanların tətbiqi ilə anatomik biliklərin praktiki müstəvidə izahına xüsusi diqqət yetirilir. Əsasən anatomik quruluş radioloji görüntülər üzərindən izah edilir.

İnteqrativ əməkdaşlıq İnsan anatomiyası və tibbi terminologiya kafedrasında Əməkdar elm xadimi, məsləhətçi professor Vaqif Şadlinski, kafedra müdiri, professor Nəriman Mövsümov və Radiologiya kafedrasının müdiri, professor Məlahət Sultan tərəfindən həyata keçirilir.

Bu yeniliyin gələcəkdə digər fənlər və kafedralar arasında elmi-təcrübi əməkdaşlığın genişləndirilməsinə imkan yaradacağı gözlənilir.

Gələcək həkimlərin sağlamlığı diqqət mərkəzində



Tədris Terapevtik Klinikada Ümumdünya Ağciyər Gününə həsr olunmuş "Ağciyər və ürək sağlamlığını yoxlat!" aksiyası keçirilib.

Sentyabrın 21-dən 26-dək davam edən aksiya çərçivəsində tələbələrimiz ürək-damar və tənəffüs sisteminin vəziyyətini qiymətləndirmək məqsədilə müxtəlif tibbi müayinələrdən ödənişsiz yararlanıblar. Müayinələr zamanı endotelial disfunksiya biomarkerləri və ümumi iltihab göstəricilərinin müəyyənləşdirilməsi üçün qan analizi, elektrokardioqrafiya (EKQ), spirometriya və bəlğəmin ümumi analizi aparılıb. Tələbələr, həmçinin sağlamlıq vəziyyəti və gündəlik vərdişləri ilə bağlı anket doldurublar.

Müayinələr I Daxili xəstəliklər kafedrasının dosenti, həkim-kardioloq Törə Sadıqova və kafedranın doktorantı Türkan Vəlixan tərəfindən aparılıb.

T.Sadıqova bildirib ki, tələbəlik dövründə sıx dərs qrafiki və gündəlik məşğulluq səbəbindən gənclər sağlamlıqlarını yoxlatdırmağı bəzən təxirə salırlar. Onun sözlərinə görə, özünə qayğı göstərmək gələcək həkimin peşə mədəniyyətinin vacib hissəsidir. Bu baxımdan tələbələrin aksiyaya fəal qoşulması sevindirici haldır.

Müayinələrin ilkin nəticələrinə əsasən, iştirakçıların əksəriyyətində patoloji dəyişiklik aşkarlanmayıb. Bununla yanaşı, bəzi tələbələrdə aritmiya və ekstrasistolalar, bronxit və allergik əlamətlər müşahidə olunub.

Müayinə zamanı siqaret çəkdiyini bildirən tələbələrlə də maarifləndirici söhbətlər aparılıb. Tütün istifadəsinin ürək-damar və tənəffüs sisteminə təsiri izah edilib, sağlam həyat tərzinin əhəmiyyəti barədə məlumat verilib.

T.Vəlixanın sözlərinə görə, tələbələrin sıx dərs qrafiki nəzərə alınaraq, bu cür profilaktik tədbirlər onların sağlamlıqlarına vaxt ayırmaları üçün əlavə imkan yaradır.

Aksiyada iştirak edən tələbələr müayinələrin təşkilindən razı qaldıqlarını bildiriblər.

Böyük Elmi Şuranın yeni tədris ilində ilk iclası keçirilib

Təhsilin təkmilləşdirilməsi üzrə 1 illik və 5 illik strateji fəaliyyət planlarının hazırlandığı diqqətə çatdırılıb

Sentyabrın 29-da Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının yeni tədris ilində ilk iclası keçirilib.

İclası açan universitetin rektoru, professor Gəray Gəraybəyli Şura üzvlərini yeni tədris ilinin başlanması münasibətilə təbrik edib. Rektor Xarici dillər kafedrasının müdiri, professor Zemfira Məmmədovanı 70, Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, professor Vəfa Pənahianı 60, Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramovu isə 50 illik yubileyləri münasibətilə təbrik edərək, onlara möhkəm cansağlığı və elmi-pedaqoji fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra gündəlikdə duran məsələlər diqqətə çatdırılıb.

İclasda "Azərbaycan Tibb Universitetində 2025/2026-cı tədris ilinin yekunları və 2026/2027-ci tədris ilində universitet kollektivinin qarşısında duran vəzifələr" barədə Tədris işləri üzrə prorektor, professor Anar Ağayevin hesabat məruzəsi dinlənilib.

A.Ağayev prorektorluğun 2025/2026-cı tədris ili ərzində tədrisin təkmilləşdirilməsi istiqamətində həyata keçirdiyi əsas tədbirlər, görülmüş işlər, eyni zamanda 2025/2026-cı tədris ilinin yaz və yay imtahan sessiyalarının nəticələri haqqında ətraflı məlumat verərək bildirib ki, əvvəlki illərdən fərqli olaraq hesabatda toxunulan məsələlərə bu dəfəki yanaşmanın əsas məqsədi yalnız əldə olunmuş nəticələri təqdim etmək deyil, həm də bu nəticələrin formalaşmasına təsir edən prosesləri, müəyyən edilmiş problemləri və onların həlli istiqamətində atılan addımları bütöv şəkildə göstərməkdir.

Rektorun tapşırığına əsasən, prorektorluq tərəfindən Azərbaycan Tibb Universitetində təhsilin təkmilləşdirilməsi üzrə 1 illik və 2026-2030-cu illəri əhatə edən 5 illik strateji fəaliyyət planlarının hazırlandığını vurğulayan A.Ağayevin sözlərinə görə, bu planların əsas məqsədi tədris prosesinin mərhələli şəkildə təkmilləşdirilməsi, klinik yönümlülüyün artırılması, müasir qiymətləndirmə yanaşmalarının tətbiqi və rəqəmsal həllərin genişləndirilməsidir.

Qeyd olunub ki, 1 illik strateji fəaliyyət planında görüləcək işlər konkret istiqamətlər və icra müddətləri üzrə müəyyən edilib. Plan tədris proqramlarının optimallaşdırılması, klinik bacarıqların qiymətləndirilməsi, rəqəmsallaşma, tələbə rəylərinin öyrənilməsi, eləcə də rezidentura və magistratura üzrə fəaliyyətləri əhatə edir: "Hesabat dövründə bütün kafedralardan fənn proqramları toplanılıb. Təqdim olunmuş sənədlər sistemləşdirilib, onların mövcud tələblərə uyğunluğu nəzərdən keçirilib və məzmun baxımından Tədris işləri üzrə prorektorluğun nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən ilkin təhlili aparılıb. Aparılmış təhlil zamanı təqdim olunmuş materiallar əsasında tədris proqramlarının təkmilləşdirilməsi, təkrarların azaldılması və fənlərarası əlaqələrin daha səmərəli qurulması üçün ilkin baza formalaşdırılıb".

Eyni zamanda fakültələr üzrə proqramların texniki və məzmun uyğunsuzluqlarının aradan qaldırılması istiqamətində də iş aparıldığını söyləyən prorektor, tədris prosesinin optimallaşdırılmasının yalnız proqram və dərs yükünün düzgün qurulması ilə məhdudlaşmadığını deyib: "Mövcud auditoriya və tədris məkanlarından səmərəli və koordinasiyalı istifadə də xüsusi əhəmiyyət daşıyır. Lakin bəzi hallarda kafedra rəhbərləri kafedraya təhkim olunmuş auditoriyalarda digər kafedraların mühazirələrinin keçirilməsi üçün lazımi şərait yaratmırlar. Halbuki universitetin auditoriya və tədris məkanları ümumi tədris prosesinə xidmət edən resurslardır və onların istifadəsi bütün tələbələrin tədris ehtiyacları nəzərə alınmaqla təşkil olunmalıdır. Biz hamımız vahid universitet strukturunun tərkib hissəsiyik və əsas məqsədimiz tələbələrin tədris prosesini fasiləsiz və səmərəli təşkil etməkdir".



Tədris prosesinin rəqəmsallaşdırılması istiqamətində də bir sıra mühüm tədbirlərin həyata keçirildiyinə diqqət çəkən prorektor, 2025/2026-cı tədris ilinin yaz semestri üzrə yay imtahan sessiyasının nəticələrinin təhlili üzərində xüsusi dayanıb. Qeyd edib ki, ümumilikdə yaz semestrinin imtahan sessiyasına qatılan 7420 tələbədən 97-si imtahanlarda iştirak etməyib. Sessiyanın başlanğıcında 20 tələbə akademik məzuniyyətdə olub, yaz semestri ərzində 20 tələbə öz ərizəsi əsasında universitetdən xaric edilib: "İmtahan sessiyasında iştirak edən 7420 tələbədən 6591 nəfəri bütün imtahanlardan müvəffəq qiymət alaraq sessiyanı akademik borc olmadan başa vurub. Beləliklə, universitet üzrə ümumi müvəffəqiyyət göstəricisi 88,82% təşkil edib. Universitet üzrə keyfiyyət göstəricisində isə 4 faiz artım qeydə alınıb".

Hesabat məruzəsində rezidentlərin dövri və yekun attestasiyalarının təşkili istiqamətində həyata keçirilən tədbirlərə də toxunulub. Bildirilib ki, hazırda rezidentura hazırlığı aparılan bütün klinik bazalar üzrə dövri və yekun attestasiyalar Azərbaycan Tibb Universitetinin İmtahan Mərkəzində təşkil olunur. Keçən tədris ilindən etibarən bütün ixtisaslar üzrə keçirilən imtahanlarla bağlı apellyasiya müraciətlərinə baxılması, testlərin və proqramların hazırlanması məqsədilə hər kafedra üzrə məsul şəxslər – ekspertlər təyin edilib. Bu yanaşma müraciətlərin daha operativ və obyektiv qiymətləndirilməsinə şərait yaradır.

Çıxışının sonunda Simulyasiya Mərkəzinin maddi-texniki bazasının prioritet ehtiyaclar əsasında mərhələli şəkildə yenilənməsi, klinik bacarıqların beynəlxalq standartlara uyğun qiymətləndirilməsi üzrə vahid metodik təlimatın hazırlanması və ingilis dilində beynəlxalq magistr proqramının hazırlanmasına başlanması haqqında təkliflərini Elmi Şura üzvlərinin nəzərinə çatdıran prorektor, yeni tədris ilində qarşıda duran vəzifələrin də uğurla həyata keçiriləcəyinə əminliyini bildirib.

Məruzə ətrafında Rezidentura və magistratura departamentinin müdiri, dosent İlhamə Mustafayeva, Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli və Sitologiya, histologiya və embriologiya kafedrasının müdiri, professor Eldar Qasımov çıxış ediblər.

İlhamə Mustafayeva çıxışında magistratura və rezidentura təhsil proqramlarının təkmilləşdirilməsi istiqamətində görülən işlərdən danışıb. Qeyd edib ki, Tədris işləri üzrə prorektorluğun rəhbərliyi və tövsiyələri əsasında magistratura təhsil proqramlarının təşkili, onların əmək bazarının və səhiyyə sisteminin tələblərinə uyğunlaşdırılması istiqamətində mühüm işlər görülüb. Bu tədbirlər gələcək mütəxəssislərin nəzəri bilikləri ilə yanaşı, praktik və tədqiqat bacarıqlarının inkişafına xidmət edir.

Bildirilib ki, hesabat dövründə 44 ixtisas üzrə rezidentura təhsil proqramları yenidən hazırlanıb, magistratura təhsil səviyyəsi üzrə təhsil proqramlarının yenilənməsi və təsdiqi prosesi başa çatdırılıb.

Rezidentura hazırlığının səmərəli təşkili məqsədilə maddi-texniki bazası və kadr potensialı qənaətbəxş olan klinikalarla görüşlər keçirilib, mövcud imkanlar öyrənildikdən sonra əməkdaşlıq müqavilələri əsasında proqramlara uyğun rotasiyalar təşkil edilib.

Fərəh Mədətli isə çıxışında tədrisin keyfiyyətinin qiymətləndirilməsində yalnız statistik göstəricilərin deyil, məzunların real peşəkar kompetensiyalarının əsas meyar olduğunu vurğulayıb. "Əczaçılıq təhsili elə bir sahədir ki, burada kəmiyyət göstəriciləri ilə yanaşı, məzunun real peşəkar kompetensiyaları, klinik və praktik düşünmə qabiliyyəti, məsuliyyəti və müasir əczaçılıq standartlarına cavab verməsi əsas meyardır", – deyə fakültə dekanı bildirib.

O qeyd edib ki, əsas məqsəd rəqəmləri yüksəltmək deyil, bu rəqəmlərin arxasında dayanan yüksək hazırlıqlı, müasir tələblərə cavab verən və peşəsinə məsuliyyətlə yanaşan əczaçı mütəxəssis yetişdirməkdir. Onun sözlərinə görə, qarşıdakı dövrdə həyata keçiriləcək ardıcıl tədbirlər həm keyfiyyət, həm də kəmiyyət göstəricilərinin daha balanslı və dayanıqlı şəkildə yüksəlməsinə imkan verəcək.

Eldar Qasımov hesabat məruzəsini yüksək qiymətləndirərək universitet səviyyəsində tədris proqramlarının təkmilləşdirilməsi istiqamətində görülən işlərin əhəmiyyətini qeyd edib. O xüsusilə tədris proqramlarının müqayisəli şəkildə yenidən nəzərdən keçirilməsini, təkrarların aradan qaldırılmasını və semestrlər üzrə bölgünün təkmilləşdirilməsini mühüm addım kimi dəyərləndirib. Bu proseslərə gənc və potensiallı kadrların fəal cəlb olunmasını da müsbət hal kimi qeyd edib.



Kafedra müdiri, həmçinin müasir tələbələrin praktik bacarıqlarının əvvəlki dövrlə müqayisədə əhəmiyyətli dərəcədə inkişaf etdiyini vurğulayıb.

Müzakirələrə yekun vuran rektor, professor Gəray Gəraybəyli tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlərin vacibliyini vurğulayıb. Rektor bildirib ki, tədrisin təkmilləşdirilməsi fasiləsiz prosesdir və xüsusilə tibb sahəsində yeni texnologiyaların, metodologiyaların, tədris və qiymətləndirmə üsullarının sürətlə dəyişməsi universitet qarşısında yeni vəzifələr qoyur.

G.Gəraybəyli qeyd edib ki, proqramların, tədris texnologiyalarının, innovasiyaların və qiymətləndirmə metodlarının yenilənməsi prosesinə universitet də fəal şəkildə qoşulmalıdır. Onun sözlərinə görə, tədris proqramlarının yeniliyi ilə bağlı müzakirələrdə kafedra müdirlərinin iştirakı xüsusi əhəmiyyət daşıyır: "Kafedrada tədris üzrə müavin vəzifəsi yoxdur. Əgər tədrisə tədris üzrə müavin, elmə elm üzrə müavin, beynəlxalq əlaqələrə isə ayrıca kurator cavabdehdirsə, o zaman kafedra müdirinin əsas funksiyası nədən ibarət olmalıdır? Əslində, bütün işlərə görə məsuliyyət kafedra müdirinin üzərinə düşür".

Rektor elektron diplom məsələsinə də toxunaraq bildirib ki, artıq ölkədə kağız diplomların verilməsi dayandırılıb. Buna görə də növbəti ilin məzunlarının sənədlərinin əvvəlcədən və vaxtında qaydaya salınması vacibdir.

G.Gəraybəyli 6-cı kurs tələbələri ilə bağlı məsələlərin də dekabr ayına qədər tam şəkildə həll edilməsinin vacibliyini vurğulayıb. Hansı fənlərdən və hansı formada imtahan verəcəkləri, qiymətləndirmə meyarları və onlardan gözlənilən tələblər barədə tələbələrin əvvəlcədən aydın şəkildə məlumatlandırılmasının zəruriliyini diqqətə çatdırıb.

Rektor auditoriyalardan səmərəli istifadə məsələsinə də xüsusi diqqət çəkib və universitetin müxtəlif struktur bölmələri tərəfindən bu istiqamətdə mütəmadi monitorinqlərin aparılmasını tapşırıb.

Qeyd olunub ki, universitetin proqramlarının akkreditasiyaya hazırlanması istiqamətində işlər artıq indidən sistemli şəkildə aparılmalıdır. Akkreditasiya prosesinin yalnız sənədləşməni deyil, dərslərin təşkili və aparılması, təhsil proqramlarının uyğunluğu, qiymətləndirmə mexanizmləri və digər istiqamətləri də əhatə etdiyi bildirilib.

Maddi-texniki bazanın, xüsusilə maneken, mulyaj və simulyatorlardan istifadənin genişləndirilməsinin tədrisin keyfiyyətinə mühüm təsir göstərdiyini qeyd edən rektor tələbələrin bu imkanlardan daha aktiv yararlanmasının vacibliyini vurğulayıb.

Magistratura təhsili ilə bağlı məsələlərə də toxunan G.Gəraybəyli bəzi ixtisaslara son illərdə müraciətlərin olmamasının səbəblərinin araşdırılmasının və bu istiqamətdə müvafiq tədbirlər görülməsinin vacibliyini bildirib.

Rektor, həmçinin ATU-da ikinci ali təhsil almaq istəyənlərin sayının yüksək olduğunu qeyd edib. Bildirilib ki, cari ildə bu məqsədlə universitetə 1000-dən artıq müraciət daxil olub.

Hesabat məruzəsi ilə bağlı müzakirələr başa çatdıqdan sonra iclasda digər məsələlərə baxılıb.

İmmunologiya kafedrasının adının, "Tibb", "Stomatologiya", "Əczaçılıq" və "Tibb bacısı (qardaşı) işi" ixtisasları üzrə təhsil proqramlarının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsinə razılıq verilib. Daha sonra yeni yaradılan Maliyyə departamentinin və Sənədlər və müraciətlər ilə iş şöbəsinin əsasnamə layihələri, ATU-nun fəaliyyət planı, Səhiyyə Nazirliyi tərəfindən göndərilən və Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu və İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanan klinik protokol, həmçinin elmi adların təsdiqi ilə bağlı məsələlər müzakirə edilərək müvafiq qərarlar qəbul olunub.

Bununla da Böyük Elmi Şuranın yeni tədris ilində ilk iclası öz işini yekunlaşdırıb.

Arif MƏMMƏDLİ



Tibbin aktual məsələləri Naxçıvanda müzakirəyə çıxarılıb

ATU-nun professor-müəllim və tələbələrindən ibarət nümayəndə heyəti I Naxçıvan Beynəlxalq Tibb Günlərində təmsil olunub.

II Müalicə-profilaktika fakültəsinin dekanı İsrail Məhərrəmbəyli, dekan müavinləri Arzu Bəydəmirova və Sevinc Məhərrəmova, akademik məsləhətçi Şəfəq Əliyeva, həmçinin Patologiya kafedrasının əməkdaşları – tibb elmləri doktoru Samirə Yaqubova, tibb üzrə fəlsəfə doktoru Arzu İbişova və Gülnarə Əliyeva Naxçıvan Dövlət Universitetində baş tutan tədbir çərçivəsində təşkil olunmuş II Cərrahi və Mama-Ginekoloji Problemlərə Multidisiplinar Yanaşmalar Konqresində iştirak edib.

Üç gün davam edən elmi tədbirdə cərrahiyyə və mama-ginekologiya sahəsində aktual problemlər, diaqnostika və müalicəyə müasir yanaşmalar, eləcə də müxtəlif ixtisasların birgə fəaliyyətini tələb edən klinik məsələlər müzakirə olunub.

Əməkdaşlarımız konqresin işində fəal iştirak edərək elmi-pedaqoji təcrübələrini təqdim edib, həmkarları ilə fikir və təcrübə mübadiləsi aparıblar. Xüsusilə patologiya sahəsində əldə olunan elmi nəticələrin və tədris təcrübəsinin bölüşülməsi müzakirələrin əsas istiqamətlərindən birini təşkil edib.

Tədbirin təşkilatçıları Naxçıvan Dövlət Universiteti və Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Cəmiyyəti olub. Cəmiyyətin sədri, ATU-nun əməkdaşı, tibb elmləri doktoru Müşviq Həsənov bildirib ki, beynəlxalq tədbirdə iştirak etmək üçün Avropa, Amerika, Orta Asiya ölkələri və qardaş Türkiyədən yüzlərlə ixtisaslaşmış həkim və elm adamı Naxçıvana gəlib.

Kafedra müdiri EACMFS səfiri statusuna layiq görülüb

Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, Ağız və Üz-çənə Cərrahları Cəmiyyətinin (AzOMFS) sədri, professor Çingiz Rəhimovun rəhbərlik etdiyi nümayəndə heyəti Afinada keçirilən Avropa Kəllə-Çənə-Üz Cərrahları Konqresində (EACMFS) iştirak edib.



Nümayəndə heyətində kafedranın dosenti Toğrul Əliyev, assistentlər Eldar Fərəcov, Rafiq İbrahimov, Elmar Əliyev, Bilal Əliyev və doktorant Günel Əliyeva təmsil olunublar. Ağız və üz-çənə cərrahiyyəsi üzrə dünyanın aparıcı elmi-praktik platformalarından biri olan EACMFS-də 100-dən çox ölkədən 3000-dən artıq mütəxəssis bir araya gəlib.

Konqresin əsas məruzəçiləri sırasında yer alan professor Ç.Rəhimov üz-çənə nahiyəsinin travmatik zədələnmələri zamanı orbitanın rekonstruksiyasına dair müəllif yanaşmasını təqdim edib. Elmi məruzədə funksional və estetik nəticələrin yaxşılaşdırılmasına imkan verən müasir cərrahi yanaşmalar diqqətə çatdırılıb. Professor, həmçinin "Dayanıqlı ağız və üz-çənə cərrahiyyəsi" sessiyasına moderatorluq edib. Sessiya çərçivəsində onun rəhbərliyi ilə tətbiq olunan "Yaşıl klinika" konsepsiyasının praktik təcrübəsi iştirakçılarla paylaşılıb.

Nümayəndə heyətinin digər üzvləri də konqresin elmi proqramında fəal iştirak ediblər. Onlar ağız və üz-çənə cərrahiyyəsinin aktual istiqamətlərinə həsr olunmuş elmi təqdimatlarla çıxış ediblər.

Konqresin yekununda professor Ç.Rəhimov EACMFS səfiri statusuna layiq görülüb. EACMFS səfiri statusu Avropa Kəllə-Çənə-Üz Cərrahları Assosiasiyası ilə milli peşəkar cəmiyyətlər arasında əməkdaşlığın inkişafına, elmi əlaqələrin genişləndirilməsinə və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə töhfə verən mütəxəssislərə təqdim olunur.

Eyni gündə iki böyrək transplantasiyası icra olunub

Tədris Cərrahiyyə Klinikasında eyni gündə iki böyrək transplantasiyası əməliyyatı uğurla həyata keçirilib. Əməliyyatlardan sonra hər iki xəstənin vəziyyətində müsbət dinamika müşahidə olunub və böyrək funksiyaları qısa müddətdə bərpa olunmağa başlayıb.



Şöbənin müdiri, transplantoloq Anar Namazovun sözlərinə görə, pasiyentlərin biri anadangəlmə tək böyrəklə doğulub və sonrakı illərdə onda böyrək çatışmazlığı inkişaf edib. Xəstəyə canlı donor olan anasından böyrək köçürülüb. Əməliyyatdan sonra xəstənin böyrək funksiyası qısa müddətdə normallaşıb. Belə ki, xəstə klinikaya daxil olarkən kreatinin göstəricisi 10,8 olduğu halda, transplantasiyadan sonra bu göstərici 1,2-yə düşüb və xəstə bir həftə ərzində evə buraxılıb.

Digər transplantasiya əməliyyatında isə anadangəlmə polikistik böyrək xəstəliyindən əziyyət çəkən xəstəyə qohumundan böyrək nəqli həyata keçirilib. Bu xəstədə də transplantasiyadan əvvəl kreatinin göstəricisi yüksək olub - 8,5. Əməliyyatdan sonra göstərici 1,1-ə qədər enib və xəstə normal vəziyyətdə evə yola salınıb. "Böyrək nəqli həyat qurtarır. Hər uğurlu transplantasiya bir insanın həyatına yeni ümid, yeni başlanğıc bəxş edir" - deyə həkim vurğulayıb.

Yüksək nəticələri ilə seçilən tələbələrə sertifikatlar verilib

İctimai səhiyyə fakültəsinin 2025-26-cı tədris ilində yüksək akademik göstəriciləri ilə fərqlənən tələbələri fəxri sertifikatlarla təltif olunub.




Təqdimetmə mərasimində fakültənin dekanı, dosent Qalina Qəniyeva tələbələrin tədris ili ərzində qazandıqları nailiyyətləri yüksək qiymətləndirib. Dekan çıxışında gələcəyin həkim və səhiyyə mütəxəssislərinin cəmiyyətin sağlamlığının qorunması və ictimai sağlamlığın inkişafında mühüm rol oynayacağını vurğulayıb. O, tələbələrin uğurlarının digər tələbələr üçün də stimul olacağına əminliyini ifadə edib.

Tələbələri - Mehriban Məmmədova (Tibb bacısı/qardaşı işi ixtisası, 323T-1B qrup), Ləman Namazova (Fizioterapiya və tibbi reabilitasiya ixtisası, 323F- 1B qrup) və Gülay Nəsirovanı (İctimai səhiyyə ixtisası, 325A- 1A qrup) əldə etdikləri yüksək nəticələr münasibətilə təbrik edən dekan onlara gələcək təhsil və peşə fəaliyyətlərində uğurlar arzulayıb.

ATU-nun professoruna yüksək etimad

Vüqar Məmmədov yenidən Ümumdünya Tibbi Hüquq Assosiasiyasının baş katibi seçilib

Tibb və hüquq elmləri doktoru, Məhkəmə təbabəti kafedrasının professoru Vüqar Məmmədov yenidən Ümumdünya Tibbi Hüquq Assosiasiyasının (WAML – World Association for Medical Law) baş katibi vəzifəsinə seçilib.



Bu barədə qərar Assosiasiyanın ötən ay Belçikanın Antverpen şəhərində keçirilən 30-cu Dünya Konqresində qəbul olunub. V.Məmmədovun yenidən bu vəzifəyə seçilməsi onun WAML-ın rəhbər orqanlarında uzun illər ərzində apardığı fəaliyyətin davamıdır. Professor 2008-ci ildən Assosiasiyanın üzvüdür, 2012-ci ildən isə WAML-ın İdarə Heyətinin tərkibində yer alaraq müxtəlif vəzifələrində çalışıb. 2024-cü ildə Assosiasiyanın baş katibi seçilib.

Ümumdünya Tibbi Hüquq Assosiasiyası 1967-ci ildə Belçikada yaradılıb. Təşkilat tibbi hüquq, məhkəmə və klinik təbabət, bioetika və insan hüquqları sahələrində fəaliyyət göstərən mütəxəssisləri bir araya gətirir. Antverpendə keçirilən konqresdə 70 ölkədən nümayəndələr iştirak edib. Onların arasında Azərbaycandan 24 mütəxəssis də olub.

V.Məmmədov 2023-cü ildən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Sosial Xidmətlər Agentliyində sosial müdafiə və əlilliyi olan şəxslərin reabilitasiyası sahəsində dövlət sektorunda fəaliyyət göstərir. Hazırda o, Agentliyin İdarə Heyəti sədrinin müavini vəzifəsini tutur.

Azərbaycan nümayəndəsinin beynəlxalq peşəkar təşkilatda rəhbər vəzifəyə yenidən seçilməsi ölkənin tibbi hüquq, bioetika və səhiyyə sahəsində insan hüquqlarının müdafiəsi ilə bağlı qlobal ekspert dialoqunda iştirakının artmasını əks etdirir.

Professor V.Məmmədov beynəlxalq peşəkar fəaliyyəti çərçivəsində UNESCO, UNICEF, FAO, UNDP, UNODC və Beynəlxalq Cinayət Məhkəməsi ilə geniş əməkdaşlıq təcrübəsinə malikdir. O, Haaqada yerləşən Beynəlxalq Cinayət Məhkəməsinin Prokuror Ofisində məhkəmə təbabəti üzrə dəvətli professor kimi çalışıb. Həmçinin Silk Road Forensic Consortium (Çin), Beynəlxalq Məhkəmə Ekspertizası Assosiasiyası (İran) və Avropa Səhiyyə Hüququ Assosiasiyasının (EAHL) vitse-prezidenti və idarə heyətinin üzvü olub.

Əməkdaşımızın WAML çərçivəsində fəaliyyətində Azərbaycanın Assosiasiyanın işində iştirakının genişləndirilməsi və ölkənin beynəlxalq peşəkar ictimaiyyətdə rolunun gücləndirilməsi xüsusi yer tutur.

Azərbaycanın WAML ilə əməkdaşlığında mühüm səhifələrdən biri 2017-ci ildə Bakıda keçirilmiş Ümumdünya Tibbi Hüquq Assosiasiyasının 23-cü Dünya Konqresi olub. Bu, Assosiasiyanın postsovet məkanında keçirilən ilk konqresi idi. Tədbirdə 51 ölkədən 400-dən çox nümayəndə iştirak edib. Konqres Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyini qazanıb. Konqres çərçivəsində Mehriban xanım Əliyevaya tibbi hüquq, bioetika və multikulturalizmin inkişafına verdiyi töhfəyə görə WAML-ın "50th Golden Anniversary Award" xüsusi mükafatı və Assosiasiyanın fəxri diplomu təqdim edilib.

Azərbaycan 2028-ci ildə Bakıda WAML-ın 32-ci Dünya Konqresinin keçirilməsi üçün müraciət edib. Müraciət Pasha Travel şirkəti tərəfindən hazırlanıb və hazırda WAML-ın İdarə Heyətinin baxışındadır. Assosiasiyanın növbəti, 31-ci Dünya Konqresi 2027-ci ildə Cənubi Afrikanın Yohannesburq şəhərində keçiriləcək.

Elmi fəaliyyətə dair hesabatlar elektronlaşdırılır

Tədris Terapevtik Klinikada Elmi tədqiqatların idarəolunması departamentinin təşkilatçılığı ilə elmi hesabatların elektronlaşmasına dair təlim keçirilib.



Təlim kafedraların elmi fəaliyyətinə dair hesabatların hazırlanması üçün yeni yaradılmış elektron sistemin təqdim edilməsi, iştirakçıların sistemin iş prinsipi və funksional imkanları barədə məlumatlandırılması, eləcə də platformadan istifadə qaydalarının izah olunması məqsədilə təşkil olunub.

Elmimetrik araşdırma şöbəsinin koordinatoru Püsən Məmmədova elektron sistemin əsas funksional imkanları, kafedraların elmi fəaliyyətinə dair məlumatların sistemə daxil edilməsi, müvafiq məlumatların strukturlaşdırılması və sistemləşdirilməsi, habelə elmi hesabatların elektron formatda hazırlanması prosesini ətraflı şəkildə izah edib.

Yeni elektron sistemin tətbiqi elmi fəaliyyətin rəqəmsallaşdırılması, kafedraların elmi hesabatlılıq prosesinin təkmilləşdirilməsi, elmi fəaliyyətə dair məlumatların vahid informasiya mühitində toplanması və idarə olunması, həmçinin elmi fəaliyyət göstəricilərinin sistemli şəkildə monitorinqinin həyata keçirilməsi baxımından əhəmiyyətlidir.

Tədbirdə Elmimetrik araşdırma şöbəsinin müdiri, professor Fatimə Seyidbəyova, Əqli mülkiyyətin inkişafı şöbəsinin müdiri, dosent Aygün Kazımlı da iştirak ediblər.

I kurs tələbələri ilə tanışlıq görüşü baş tutub



Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə birinci kurs tələbələri ilə tanışlıq görüşü keçirilib.

Görüşün əsas məqsədi universitetə yeni qəbul olunan tələbələrin ATU-nun zəngin və çoxşaxəli həyatına daha asan uyğunlaşmasına dəstək olmaq, onları təhsil prosesi ilə yanaşı, sosial və ictimai fəaliyyət imkanları barədə məlumatlandırmaq, tələbəlik illərindən daha səmərəli yararlanmaları üçün istiqamət vermək olub.

Dövlət Himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunmasından sonra THİK-in sədri Qoşqar İsmayılov çıxış edərək yeni tələbələri salamlayıb, onlara tələbəlik həyatında uğurlar arzulayıb.

Q.İsmayılov bildirib ki, rektor, professor Gəray Gəraybəylinin rəhbərliyi ilə Azərbaycan Tibb Universiteti uzun illərdir elmi və tədris nailiyyətləri, eləcə də ictimai fəaliyyət sahəsində əldə etdiyi uğurlarla ölkənin aparıcı ali təhsil müəssisələrindən biri kimi öz mövqeyini möhkəmləndirib. THİK də universitetin ümumi fəaliyyət istiqamətlərinə uyğun olaraq tələbələrin ictimai fəallığının artırılmasına, onların müxtəlif layihə və təşəbbüslərdə iştirakına şərait yaradır.

Qeyd olunub ki, tələbəlik illərində yalnız nəzəri biliklərin əldə edilməsi deyil, müxtəlif bacarıqların formalaşdırılması, təşkilati və ictimai fəaliyyət təcrübəsinin qazanılması da mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə tələbələr üçün müxtəlif imkanların yaradılacağını diqqətə çatdıran THİK sədri yeni tələbələr arasında da ictimai fəallığı ilə seçilən gənclərin olacağına əminliyini ifadə edib.

Görüşdə THİK-in sədr müavini Aydın Cəfərov, komitənin fakültələr üzrə sədrləri, eləcə də THİK-in nəzdində fəaliyyət göstərən müxtəlif tələbə klublarının rəhbərləri çıxış ediblər. Onlar təmsil etdikləri strukturların fəaliyyət istiqamətləri, tələbələrin akademik və şəxsi inkişafına töhfə verə biləcək layihələr, könüllülük proqramları və sosial təşəbbüslər barədə ətraflı məlumat veriblər.

Təqdimatlar zamanı tələbələrin diqqətinə çatdırılıb ki, Azərbaycan Tibb Universiteti yalnız mühazirə və dərs otaqlarından ibarət deyil. Universitet həyatı həm də gənclərin öz potensiallarını kəşf etdiyi, yeni dostlar qazandığı, müxtəlif təcrübələr əldə etdiyi və gələcək peşəkar həyatlarına doğru mühüm addımlar atdığı zəngin bir mərhələdir.

Kardiologiyada maqnit-rezonans tomoqrafiyası əvəzolunmazdır

Yasmin Rüstəmova: Ürək MRT-si aritmik və klinik riskin qiymətləndirilməsinə də imkan verir

Maqnit-rezonans tomoqrafiyası kardiologiyada xəstənin vəziyyətini qiymətləndirmək baxımından mühüm diaqnostik üsullardan biridir.

Bu barədə açıqlama verən I Daxili xəstəliklər kafedrasının dosenti Yasmin Rüstəmova bildirib ki, maqnit-rezonans tomoqrafiyası (ürək MRT-si, CMR) ürəyin morfologiyasını, funksiyasını və miokard toxumasının strukturunu kompleks şəkildə qiymətləndirən müasir qeyri-invaziv görüntüləmə metodudur:

“Bu metod ionlaşdırıcı şüalanmadan istifadə etmir, yüksək məkan və kontrast rezolyusiyasına malikdir və nəticələrin təkrarlana bilməsi ilə seçilir. Hazırda ürək MRT-si bir sıra klinik vəziyyətlərdə diaqnostika, riskin qiymətləndirilməsi, müalicə taktikasının seçilməsi və dinamik müşahidə üçün mühüm rol oynayır”.

Ürək kameralarının və funksiyasının referens qiymətləndirilməsi

Kardioloqun sözlərinə görə, hərəkətli görüntüləmə vasitəsilə sol və sağ mədəciyin həcmləri, atım fraksiyası, miokard kütləsi, regional divar hərəkətləri və qapaq aparatının fəaliyyəti dəqiq qiymətləndirilir. Belə ki, ürək MRT-si xüsusilə sağ mədəciyin ölçü və funksiyasının təyin edilməsində referens metod hesab olunur. Buna görə də anadangəlmə ürək qüsurları, ağciyər hipertenziyası və aritmogen sağ mədəcik kardiomiopatiyasının qiymətləndirilməsində xüsusi əhəmiyyət daşıyır.

Y.Rüstəmova onu da qeyd edib ki, ürək MRT-sinin digər görüntüləmə metodlarından əsas üstünlüyü miokard toxumasının xüsusiyyətlərini in vivo müəyyən edə bilməsidir: “Gecikmiş qadolinium kontrastlanması - late gadolinium enhancement (LGE) - nekroz və fibroz sahələrini aşkar edir. LGE-nin lokalizasiyası və yayılma forması işemik və qeyri-işemik miokard zədələnməsinin diferensial diaqnostikasına imkan verir. İşemik zədələnmədə kontrastlanma adətən subendokardial və ya transmural, qeyri-işemik patologiyalarda isə midmiokardial, subepikardial və ya ocaqlı xarakter daşıyır.



Miokard toxumasının in vivo analizi və diferensial diaqnostikası

T1 və T2 mapping kimi parametrik xəritələmə metodları miokarddakı diffuz dəyişiklikləri kəmiyyətcə qiymətləndirir. Nativ T1 və ekstrasellülar həcm fraksiyası (ECV) diffuz fibroz və infiltrativ proseslər haqqında məlumat verir. T2 mapping isə miokard ödeminin müəyyən edilməsində istifadə olunur. Bu metodların miokardit, ürək amiloidozu, Anderson – Fabri xəstəliyi, dəmir yüklənməsi və digər sistem xəstəliklərinin erkən diaqnostikasında xüsusi rolu var”.

Stress-perfuziya MRT-sinin isə farmakoloji yük zamanı miokard perfuziyasını qiymətləndirərək hemodinamik əhəmiyyətli işemiyanı aşkar edə bildiyini deyən mütəxəssis vurğulayıb ki, miokard infarktından sonra LGE görüntüləri infarkt zonasını, transmural zədələnmə dərəcəsini, mikrovaskulyar obstruksiyanı və intramiokardial hemorragiyanı göstərir. Həmçinin fibrozun transmural yayılmasının qiymətləndirilməsi revaskulyarizasiyadan sonra miokard funksiyasının bərpa ehtimalını proqnozlaşdırmağa kömək edir.

Həkim-kardioloq bildirib ki, hipertrofik, dilatasion, aritmogen və infiltrativ kardiomiopatiyalarda ürək MRT-si diaqnozun dəqiqləşdirilməsi ilə yanaşı, aritmik və klinik riskin qiymətləndirilməsinə də imkan verir: “Fibrozun mövcudluğu və həcmi ürək çatışmazlığının proqressivləşməsi, mədəcik aritmiyaları və qəfil ürək ölümü riski ilə əlaqəli ola bilər.

Ürək MRT-sinin istifadəsi zamanı implantasiya olunmuş cihazların MRT-yə uyğunluğu, böyrək funksiyası, qadolinium kontrastına göstəriş və əks-göstərişlər əvvəlcədən qiymətləndirilməlidir”.

THİK sədri, Tədris Terapevtik Klinikanın Uşaq xəstəlikləri şöbəsinin müdiri və II Uşaq xəstəlikləri kafedrasının assistenti Qoşqar İsmayılov komitənin fəaliyyəti barədə məlumat verərək bildirib ki, o, 2022-ci ildən etibarən bu vəzifədə çalışır və bu dövr ərzində bir sıra mühüm layihə və tədbirlərin həyata keçirilməsinə nail olunub.



Q.İsmayılov, həmçinin ATU-nun Böyük Elmi Şurasının, Rektor yanında Şuranın və Fakültə Elmi Şurasının tamhüquqlu üzvü olduğunu bildirib. Universitetdə tələbələrlə bağlı qəbul olunan qərarlarda komitənin rəyi nəzərə alınır. Onun sözlərinə görə, tələbələrin sosial aktivliyinin artırılması və onların universitet həyatına inteqrasiyasında THİK-in mühüm rolu var.

Tələbə Həmkarlar İttifaqı Komitəsi geniş imkanlar təqdim edir

THİK tələbələrin hərtərəfli inkişafına yönəlmiş çoxşaxəli fəaliyyət həyata keçirir

Komitə sədri qeyd edib ki, THİK-in tərkibinə bütün fakültələr üzrə sədr və müavinlər, eləcə də 14 yaradıcılıq klubunun rəhbərləri və aktiv büro üzvləri daxildir. Komitə nəzdində İntellektual Oyunlar, teatr, şahmat, kitab, “Doctors Media”, “Xarici tələbələrin səsi”, “İşıq” yardım, K-Logy, rəsm, fləşmob, kiber idman, şəxsi inkişaf və psixoloji təlimlər, debat və conversation klubları fəaliyyət göstərir.

Komitənin əsas fəaliyyət istiqamətlərinə I kurs tələbələrinin bu təşkilatda qeydiyyata alınması, tələbə hüquqlarının qorunması, aktiv və istedadlı gənclərin aşkar edilərək onlarla iş aparılması, nizam-intizam qaydalarına nəzarət, sosial rifahın yaxşılaşdırılması, eləcə də şəhid və qazi ailələrinin övladlarına maddi dəstək göstərilməsi daxildir.

Eyni zamanda komitə tələbələrin asudə vaxtının səmərəli təşkilinə xüsusi önəm verir. Bu çərçivədə yataqxana şəraitinin yaxşılaşdırılması, sağlam həyat tərzinin təşviqi, vətənpərvərlik ruhunun aşılanmasına yönəlmiş, narkomaniya və digər zərərli vərdişlərə qarşı maarifləndirici tədbirlər, həmçinin idman və sağlamlıq yönümlü layihələr həyata keçirilir. Tələbələrin respublika daxilində və xaricdə keçirilən müsabiqə, konfrans və festivallarda iştirakı da dəstəklənir.

Q.İsmayılov rəhbərlik etdiyi qurum tərəfindən həyata keçirilən bir sıra layihələrdən də bəhs edib. Onun sözlərinə görə, Stomatologiya fakültəsinin tələbələri üçün “Dental Sculpture Workshop” təşkil olunub. Tədbirin məqsədi tələbələrin diş anatomiyası üzrə praktik bilik və bacarıqlarının, eləcə də əl vərdişlərinin inkişaf etdirilməsi olub.

Həmçinin 4 aprel tarixində “Stomatoloji praktikada ilk yardım” mövzusunda maarifləndirici tədbir keçirilib. Akademik Zərifə Əliyevanın 103 illiyinə həsr olunmuş “İşığa baxış” adlı elmi-praktiki konfrans isə Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təşəbbüsü, ATU THİK-in təşkilatçılığı və Oftalmologiya kafedrasının dəstəyi ilə baş tutub. Konfrans tələbələrin elmi biliklərinin artırılmasına töhfə verib. Proqram çərçivəsində “Həyat” teatr klubunun təqdimatında “Göz həkimi” tamaşasından səhnəcik də nümayiş olunub.

Bundan əlavə, “Doctors Media” klubunun təşkilatçılığı ilə “Böhranlı vəziyyətlər zamanı ilk yardımın xüsusiyyətləri” mövzusunda tələbə forumları keçirilib. “Həyatın ritmi: elektrikin iki üzü” adlı tədbirdə elektrik mənşəli travmalar zamanı ilkin yardım qaydaları və düzgün müdaxilə üsulları barədə tələbələrə ətraflı məlumat verilib.

Qoşqar İsmayılov gələcək planlar barədə də danışaraq bildirib ki, yeni tədris ili ərzində tələbələrin akademik, sosial və şəxsi inkişafına yönəlmiş bir sıra layihələrin həyata keçirilməsi nəzərdə tutulur. I kurs tələbələrinin universitet mühitinə adaptasiyası üçün tanışlıq görüşləri, xarici dil bacarıqlarının inkişafı üçün conversation klublar, debat və natiqlik turnirləri, tibbi biliklərin artırılması məqsədilə maarifləndirici videolar, eləcə də intellektual yarışların təşkili planlaşdırılır.

Eyni zamanda ekologiya, sosial məsuliyyət, psixoloji rifah və gələcəyin tibb texnologiyalarına həsr olunmuş layihələrin icrası da nəzərdə tutulur. Mental sağlamlıq, stressin idarə olunması, meditasiya və psixoloji dəstək yönümlü seminarlar da fəaliyyət planına daxildir.

Bir sözlə, ATU-da tələbələrin hərtərəfli inkişafı üçün geniş imkanlar yaradılıb və Tələbə Həmkarlar İttifaqı Komitəsi bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir.

Türkiyəli professorlar ATU-da



Türkiyənin Tokat Qazi Osmanpaşa Universitetinin prorektoru, professor Mücahit Eğri akademik mübadilə proqramı çərçivəsində Azərbaycan Tibb Universitetini ziyarət edib. Səfər çərçivəsində professor İctimai sağlamlıq və səhiyyənin təşkili, həmçinin Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedralarında təcrübə keçib.
Akademik mübadilə zamanı kafedraların fəaliyyəti və tədris prosesi ilə tanışlıq aparılıb, müvafiq istiqamətlər üzrə fikir mübadiləsi və təcrübə paylaşımı həyata keçirilib.

* * *



Adıçəkilən universitetin professoru Esra Koç isə akademik mübadilə proqramı çərçivəsində Əczaçılıq toksikologiyası və kimya kafedrasının professor-müəllim heyəti və tələbələri üçün üzvi kimya mövzusunda mühazirə ilə çıxış edib.
Mühazirə zamanı üzvi kimyanın müxtəlif istiqamətləri, sahə üzrə aktual elmi məsələlər və müasir yanaşmalar barədə ətraflı məlumat verilib. Təqdimatın ardından iştirakçıların sualları cavablandırılıb, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Nevrologiya kafedrasının əməkdaşları Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən beynəlxalq elmi tədbirdə Azərbaycanın müasir neyrogenetika sahəsində elmi potensialını təqdim ediblər.
Professor Aytən Məmmədbəyli, assistent Mədinə Tağıyeva və dissertant Yaqut Hüseynli "Müasir neyrogenetika: genomdan terapiyaya" adlı beynəlxalq elmi-praktik konfransda elmi məruzələrlə çıxış ediblər.



Konfrans müasir neyrogenetikanın ən aktual məsələlərinin müzakirə edildiyi beynəlxalq elmi platformalardan biri kimi diqqət çəkib. Tədbirdə nevrogenetik xəstəliklərin molekulyar-genetik əsasları, müasir diaqnostika imkanları, genomik tədqiqatların nəticələrinin klinik praktikaya tətbiqi və yeni terapevtik yanaşmalar ətrafında geniş fikir mübadiləsi aparılıb.

* * *

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları müasir tədqiqat metodları, data analitikası, coğrafi informasiya sistemləri və süni intellekt texnologiyaları üzrə beynəlxalq layihə çərçivəsində keçirilən təlim proqramlarını uğurla başa vurublar.
Kafedrada perspektivli əməkdaşların müvafiq təlim proqramlarına cəlb olunması və əldə etdikləri biliklərin gələcəkdə kafedranın elmi layihələrində, eləcə də Data-analitika və Süni intellekt laboratoriyasının fəaliyyətində tətbiqi nəzərdə tutulur.
Kafedranın müdiri, dosent İsmayıl Qafarov bildirib ki, əməkdaşların bu istiqamətdə hazırlığı kafedranın və laboratoriyanın gələcək elmi fəaliyyətinin inkişaf hədəfləri ilə birbaşa əlaqəlidir: "Məqsədimiz yalnız yeni texnologiyalardan istifadə etmək deyil, onları mənimsəyən, nəticələri düzgün təhlil və interpretasiya edə bilən mütəxəssislər yetişdirməkdir. Kafedramızda yeniliklərə açıq, öyrənməyə və



peşəkar inkişaf etməyə həvəsli gənc əməkdaşların olması bizim üçün böyük üstünlükdür. Onların yay aylarında bu təlimlərdə iştirakı da gələcək fəaliyyətimiz nəzərə alınmaqla məqsədyönlü şəkildə təşviq edilib".
Kafedranın müəllimi Şəbnəm Hacıyeva, baş laborantlar Kəmalə Kərimova, Türkan Rüstəmli və Günəş Nağızadə Cənubi Koreya səfirliyi eləcə də Rusiya-Azərbaycan dostluq münasibətlərindən danışıb. N.Xəlilov, həmçinin iki sessiyanın sədri və moderatoru qismində fəaliyyət göstərib.
Beynəlxalq tədbirdə əməkdaşımızın "Uşaqlarda və yenidoğulmuşlarda inkişaf qüsurları və oma-büzdüm nahiyəsinin anomal törəmələrinin diaqnostikası və cərrahi müalicəsi" mövzusunda elmi məruzəsi dinlənilib.
Altı ölkədən aparıcı alimlər, səhiyyə nümayəndələri və praktik həkimlərin qatıldığı tədbirdə uşaq cərrahiyyəsi, onkologiya, ortopediya, travmatologiya və reanimatologiyanın aktual məsələləri müzakirə olunub.
Konfrans çərçivəsində iştirakçılara müasir cərrahi texnologiyalar real vaxt rejimində nümayiş etdirilib, yaraların müalicəsi və patoloji çapıqların korreksiyası üzrə master-siniflər keçirilib. Tədbirin son günündə nadir və mürəkkəb klinik hallar interaktiv formatda təhlil edilib, həkimlər simulyator və biomodellər üzərində praktik bacarıqlarını təkmilləşdiriblər.

* * *

Əməkdaşlarımızın uğurları



Ortopedik stomatologiya kafedrasının assistenti Narin Babayeva 54 ölkəni əhatə edən genişmiqyaslı endodontik tədqiqatın müəlliflər qrupunda yer alıb və araşdırmanın nəticələri "Journal of Endodontics"də dərc olunub.
N.Babayevanın digər mühüm nailiyyəti European Society of Endodontology (ESE) tərəfindən "Certified member" statusu ilə üzvlüyə qəbul edilməsidir.
Sözügedən tədqiqat konus-şüalı kompüter tomoqrafiyası (CBCT) əsasında periapikal patologiyanın qlobal yayılmasını araşdırır. "Certified member" statusu isə mütəxəssisin endodontiya sahəsində müəyyən edilmiş peşəkar və akademik meyarlara cavab verdiyini təsdiqləyir. O, bu statusu əldə edən ilk azərbaycanlı mütəxəssisdir.



Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov Rusiyanın Stavropol şəhərində keçirilən "Şimali Qafqazda uşaq yaşlarında cərrahiyyə, onkologiya, anesteziologiya və reanimatologiyanın aktual məsələləri" adlı beynəlxalq elmi-praktik konfransda iştirak edib.
N.Xəlilov konfransın Təşkilat Komitəsinin üzvü olmaqla yanaşı, beynəlxalq tədbirdə çıxış edib. O, konfransın əhəmiyyətindən, elmi və praktik əməkdaşlığın genişləndirilməsindən, və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin birgə layihəsi çərçivəsində təşkil olunan təlim proqramlarına qatılaraq müvafiq sertifikatlar əldə ediblər. Bundan əlavə, onlar süni intellekt üzrə keçirilən təlimlərdə də iştirak edərək, proqramı müvəffəqiyyətlə başa vurublar.

* * *

Payızda dəri xəstəlikləri və allergiyadan qorunmağın yolları

"Fəsil dəyişiklikləri zamanı immun sistemdə də müəyyən dəyişikliklər baş verir. Xüsusilə yaydan payıza və qışdan yaza keçid dövrlərində dəri və allergik xəstəliklərin kəskinləşməsi müşahidə oluna bilər".
Bu fikirləri Dermatovenerologiya kafedrasının assistenti Vahid Mahmudov "Təbib" qəzetinə açıqlamasında bildirib. O qeyd edib ki, payız aylarında respirator virus infeksiyaları ilə yanaşı, bəzi dəri və allergik xəstəliklərin də əlamətləri kəskinləşə bilər.
Mütəxəssis virus infeksiyaları ilə allergik reaksiyaların əlamətlərinin müəyyən hallarda bir-birinə bənzədiyini bildirərək, onların fərqləndirilməsində bəzi xüsusiyyətlərə diqqət yetirməyin vacib olduğunu vurğulayıb. Onun sözlərinə görə, subfebril hərarət, halsızlıq və baş ağrısı daha çox virus infeksiyalarında müşahidə olunur. Allergik reaksiyalarda isə xüsusilə tənəffüs çətinliyi və müəyyən qida, maddə və ya digər allergenlə təmasdan sonra simptomların güclənməsi xarakterikdir.
V.Mahmudov dəri xəstəlikləri arasında herpes infeksiyalarına da diqqət çəkib. Bildirib ki, herpesin müxtəlif tipləri bədənin fərqli nahiyələrində özünü göstərə və müxtəlif əlamətlərlə müşayiət oluna bilər. Herpes infeksiyalarının dalğavari xarakter daşıdığını, simptomların müəyyən müddətdən sonra azalaraq yenidən kəskinləşə bildiyini qeyd edib.



Dəri allergiyaları zamanı kontakt dermatitin də geniş yayıldığını deyən mütəxəssis bu halda simptomların allergenlə təmasdan sonra yarandığını bildirib. Onun sözlərinə görə, səbəb olan faktor aradan qaldırıldıqda, bəzi hallarda dəri reaksiyası əlavə müalicə olmadan da azala bilər.
Payız aylarında ekzema, dermatit və digər dəri xəstəliklərinin kəskinləşməsinin əsas səbəblərinə toxunan V.Mahmudov, havanın və temperaturun sürətli dəyişməsinin dəriyə təsir etdiyini vurğulayıb. O qeyd edib ki, soyuq və quru hava dərinin qurumasına səbəb olaraq xüsusilə ekzema və dermatitlərin əlamətlərini gücləndirə bilər.
Mütəxəssis dərinin quruluğunun qarşısını almaq üçün nəmləndirici vasitələrdən istifadə etməyin vacibliyini bildirib: "Soyuq havalarda dərinin qorunması xüsusilə vacibdir. Tərkibində A və E vitaminləri olan nəmləndirici əl kremlərindən istifadə dərinin quruluğunun və çatlamasının qarşısını almağa kömək edə bilər".
Onun sözlərinə görə, soyuq hava ilə birbaşa təmasda olan nahiyələrdə, xüsusilə əllərdə dəri quruluğu daha çox müşahidə olunur. Bu səbəbdən həmin nahiyələrin qorunmasına diqqət yetirmək lazımdır.
V.Mahmudov dəri xəstəlikləri və allergik reaksiyalar zamanı özbaşına dərman və məlhəm istifadəsinin yolverilməz olduğunu bildirib. Qeyd edib ki, oxşar əlamətlərə malik müxtəlif dəri xəstəliklərinə düzgün diaqnoz qoyulmadan müalicəyə başlanıldıqda yanlış nəticələrə səbəb ola bilər. Xüsusilə tərkibində qlükokortikosteroidlər olan məlhəmlərin uzun müddət və həkim nəzarəti olmadan istifadəsi həm dəridə, həm də orqanizmdə arzuolunmaz yan təsirlər yarada bilər. Bu səbəbdən belə preparatların yalnız həkim məsləhəti və nəzarəti ilə tətbiqi tövsiyə olunur.
Payız mövsümündə sağlamlığın qorunması üçün profilaktik tədbirlərin, xüsusilə balanslı və vitaminlərlə zəngin qidalanmanın vacibliyini vurğulayan mütəxəssis mövsümi meyvə-tərəvəzlərə üstünlük verməyi tövsiyə edib. O, bolqar bibəri, alma və digər təbii məhsulların faydalı olduğunu, eyni zamanda sitrus meyvələrinin bəzi insanlarda allergik reaksiyalara səbəb ola biləcəyini qeyd edib.
Mütəxəssis payız aylarında psoriaz kimi xroniki dəri xəstəliklərinin də kəskinləşə bildiyini bildirib. Psoriaz yoluxucu xəstəlik deyil və bir insandan digərinə keçmir. Xəstəlik zamanı qaşınma, qabıqlanma və dəridə müxtəlif dəyişikliklər müşahidə oluna bilər. Onun sözlərinə görə, psoriazın yaranma səbəbi tam müəyyən edilməsə də, genetik meyillilik, stress və müxtəlif xarici amillər xəstəliyin kəskinləşməsində rol oynaya bilər. V.Mahmudov psoriazın ilkin mərhələdə ekzema və digər allergik dəri xəstəliklərinə bənzəyə bildiyini bildirib. Bu səbəbdən düzgün və vaxtında diaqnostika əhəmiyyət daşıyır.
Sonda mütəxəssis payız aylarında respirator virus infeksiyalarından qorunmaq üçün insanların sıx olduğu məkanlarda qoruyucu tədbirlərə əməl etməyi tövsiyə edib.



Əhəmiyyət vermədiyimiz şikayətlər ciddi problemlərin göstəricisi ola bilər



Mütəxəssis COVID-19 pandemiyasından sonra endokrinoloji xəstəliklərə daha çox rast gəlindiyini deyir

Şəkərli diabet, qalxanabənzər vəz xəstəlikləri, yod çatışmazlığı və hormonal pozuntular son illərdə cəmiyyətin daha çox üzləşdiyi sağlamlıq problemləri sırasındadır. Xüsusilə COVID-19 pandemiyasından sonra bəzi endokrinoloji xəstəliklərin daha çox aşkarlanması mütəxəssislərin diqqətini çəkir.

Bəs hansı əlamətlərə ciddi yanaşmaq lazımdır? Yod preparatlarını nəzarətsiz qəbul etmək hansı fəsadlara səbəb ola bilər? Qalxanabənzər vəz xəstəlikləri sonsuzluğa gətirib çıxara bilərmi və uşaqların bu orqanın fəaliyyətinə görə müayinədən keçirilməsi nə dərəcədə vacibdir? Bu və digər sualları Tədris Terapevtik Klinikanın Endokrinologiya şöbəsinin müdiri, II Daxili xəstəliklər kafedrasının dosenti Səbinə Məşədiyeva cavablandırır.

Onun sözlərinə görə, son illərdə endokrinoloji xəstəliklərlə bağlı müraciətlərin sayında artım müşahidə olunur: "Müraciətlər arasında şəkərli diabetin II tipi əvvəlki illərdə olduğu kimi, yenə də ilk sırada dayanır. Bununla yanaşı, xəstəliyin daha spesifik formalarının, o cümlədən yetkin yaşlarda müşahidə olunan LADA tipli diabetin də artdığı diqqət çəkir".

S.Məşədiyeva bildirir ki, əvvəllər I tip şəkərli diabetə əsasən uşaqlarda, yeniyetmələrdə və gənclərdə rast gəlindiyi halda, son illərdə bu xəstəlik 45 yaşdan yuxarı şəxslərdə də aşkarlanır. Xüsusilə 2020-ci ildən, COVID-19 pandemiyasından sonra bu istiqamətdə artım müşahidə edilməsi mütəxəssislərin diqqətindən yayınmayıb.

COVID-19-dan sonra qalxanabənzər vəzin bəzi xəstəliklərində, o cümlədən yarımkəskin tireoiditlərdə də artım müşahidə olunub. Həkim bunu virus infeksiyası ilə əlaqələndirir və pasiyentlərin anamnezində COVID-19 keçirməsinin də nəzərə alındığını bildirir.

Lakin endokrinoloji problemlərin əlamətləri yalnız konkret xəstəliklərlə məhdudlaşmır. Uzun müddət davam edən yorğunluq, halsızlıq, yuxululuq və əsəbilik kimi gündəlik həyatda çox vaxt əhəmiyyət verilməyən şikayətlər də orqanizmdə müəyyən problemlərin göstəricisi ola bilər. Belə hallarda qalxanabənzər vəzin funksiyası və D vitamini səviyyəsinin yoxlanılması, ümumi qan analizi tövsiyə olunur.

Qalxanabənzər vəz xəstəlikləri qadınlarda daha çox müşahidə edilsə də, son illərdə kişilər arasında da bu problemlərin artdığı bildirilir. Boyun nahiyəsində yaranan şişkinliklər isə heç də həmişə qalxanabənzər vəz xəstəliyindən xəbər vermir. Belə şişkinlik limfa düyünləri ilə bağlı problemlərdən də qaynaqlana bilər. Buna görə belə əlamətlərlə qarşılaşan şəxslərin ilk növbədə terapevtə müraciət etməsi məqsədəuyğundur. Qalxanabənzər vəzdə düyün aşkarlandıqda isə, müayinənin daha geniş aparılması tələb olunur. Ultrasəs müayinəsi, laborator analizlər və zərurət yarandıqda biopsiya düyünün xarakterinin müəyyənləşdirilməsində mühüm rol oynayır.

Endokrinoloq yod preparatlarının istifadəsi ilə bağlı cəmiyyətdə geniş yayılmış yanlış təsəvvürlərə də diqqət çəkir. Yodun çatışmazlığı təsdiqlənmədən onun preparat şəklində qəbul edilməsi düzgün deyil. Xüsusilə autoimmun tireoidit zamanı yodun nəzarətsiz qəbulu arzuolunmaz nəticələrə səbəb ola bilər. Eləcə də normadan artıq yod qəbulu tireotoksikoz və toksik zob kimi problemlərə gətirib çıxarar. Buna görə yod preparatları yalnız müvafiq müayinələrdən sonra və həkim məsləhəti ilə qəbul edilməlidir.

Qalxanabənzər vəzin fəaliyyətinin pozulması reproduktiv sağlamlığa da təsir göstərir. Xüsusilə müalicə olunmayan hipotireoz həm qadınlarda, həm də kişilərdə sonsuzluq problemlərinə səbəb ola bilər. O cümlədən vəzin funksiyasının zəifləməsi prolaktin hormonunun səviyyəsinin yüksəlməsinə, bu isə qadınlarda follikulun yetişməsini və yumurtalıqların fəaliyyətini ləngidə, kişilərdə isə spermatogenezə mənfi təsir göstərə bilər.

Məhz buna görə sonsuzluq problemi ilə müraciət edən pasiyentlərdə qalxanabənzər vəzin fəaliyyətinin yoxlanılması artıq müayinələrin mühüm istiqamətlərindən birinə çevrilib.

S.Məşədiyeva uşaqlarda qalxanabənzər vəzin fəaliyyətinin vaxtında qiymətləndirilməsinin vacibliyini də vurğulayır. Onun sözlərinə görə, əvvəllər məktəblərdə uşaqlar müəyyən yaş dövrlərində tibbi müayinələrdən keçirilir və qalxanabənzər vəzin fəaliyyəti də yoxlanılırdı.

Mütəxəssis hesab edir ki, uşaqların məktəbdə təhsil aldığı dövr ərzində heç olmasa bir-iki dəfə bu istiqamətdə müayinədən keçirilməsi xəstəliklərin erkən aşkarlanması baxımından faydalı olar.

Qabil ABDULLAYEV

ŞƏRƏFLİ VƏ ZƏNGİN ÖMÜR YOLU



Ömrünü elmə, təhsilə və müəllimlik peşəsinə həsr etmək böyük məsuliyyət, zəhmət və fədakarlıq tələb edir. Bu mənada Əməkdar müəllim, filologiya elmləri doktoru, professor Zemfira Şahnəzər qızı Məmmədovanın keçdiyi yol zəngin elmi-pedaqoji fəaliyyəti, müəllimlik peşəsinə sədaqəti və Azərbaycan ali təhsilinə uzunillik xidməti ilə seçilir.

Zemfira xanım uzun illərdir ki, pedaqoji və elmi fəaliyyətini uğurla davam etdirir. 1983-cü ildən başlayan əmək yolunda müəllimlikdən professorluğa, kafedra müdirliyinə qədər yüksələrək zəngin təcrübə qazanıb. 2002-ci ildən Azərbaycan Tibb Universitetinin Xarici dillər kafedrasının müdiridir. Onun elmi fəaliyyətində mühüm mərhələlərdən biri 1987-ci ildə namizədlik dissertasiyasını müdafiə etməsidir. Elmi araşdırmalarını ardıcıl davam etdirən Z.Məmmədova 2003-cü ildə dosent elmi adına layiq görülüb. 2012-ci ildə doktorluq dissertasiyasını müdafiə edərək filologiya üzrə elmlər doktoru elmi dərəcəsi alıb. 2017-ci ildə isə ona professor elmi adı verilib. Professor Zemfira Məmmədova elmi-pedaqoji fəaliyyətlə yanaşı, Milli Elmlər Akademiyasının Koordinasiya Şurasının, həmçinin Azərbaycan Dillər Universitetinin Müdafiə Şurasının üzvü kimi elmin və elmi kadrların inkişafına öz töhfəsini verməkdə davam edir.

Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2021-ci il tarixli sərəncamı ilə uzunillik elmi-pedaqoji fəaliyyətinə görə Zemfira xanıma "Əməkdar müəllim" fəxri adı verilmişdir.

Professor həm də tədqiqatçı-alimdir, müəllifi olduğu monoqrafiyalar, dərsliklər və dərs vəsaitləri, lüğət, metodik tövsiyə, proqram, elmi məqalə və tezislər onun uzun illər ərzində apardığı elmi axtarışların nəticəsidir.

Yüksək şəxsi keyfiyyətləri sayəsində universitet kollektivi və tələbələrin böyük hörmətini qazanmış Zemfira Şahnəzər qızı Məmmədovanı 70 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, elmi və pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

Xarici dillər kafedrasının əməkdaşları

Qaraciyər "şikayətlənməyi sevmir"

"Qaraciyər xəstəliklərinin müasir dövrdə daha geniş yayılmasında həyat tərzi, qidalanma vərdişləri və metabolik pozğunluqlar mühüm rol oynayır". Bu fikirləri III Daxili xəstəliklər kafedrasının assistenti, Tədris Terapevtik Klinikanın Hepatoloji şöbəsinin müdiri Hicran Xıdırova bildirib.

O qeyd edib ki, qaraciyər insan orqanizmində maddələr mübadiləsinin tənzimlənməsi, zərərli maddələrin zərərsizləşdirilməsi, enerji mübadiləsinin təmin olunmasında və immun sisteminin fəaliyyətində mühüm rol oynayan həyati vacib orqandır. Son illərdə urbanizasiya, oturaq həyat tərzi və yüksək kalorili qidalanmanın geniş yayılması qaraciyər xəstəliklərinin strukturunda ciddi dəyişikliklərə səbəb olub.

H.Xıdırovanın sözlərinə görə, əvvəllər qaraciyər xəstəlikləri arasında əsas diqqət virus hepatitlərinə yönəldiyi halda, hazırda metabolik pozğunluqlarla əlaqəli qaraciyər xəstəlikləri də hepatologiyanın əsas problemlərindən birinə çevrilib. Uzun illər istifadə olunan qeyri-alkoqol mənşəli qaraciyər yağlanması xəstəliyi - NAFLD termini dəyişdirilərək metabolik disfunksiya ilə əlaqəli steatotik qaraciyər xəstəliyi - MASLD adlandırılıb. Bu xəstəliyin daha proqressiv forması isə metabolik disfunksiya ilə əlaqəli steatohepatit - MASH kimi təsnif edilir.

Həkim vurğulayıb ki, qaraciyər yağlanması yalnız artıq çəkili insanlarda müşahidə olunmur, normal bədən kütlə indeksinə malik şəxslərdə də bu xəstəliyə rast gəlinə bilər. Qidalanma vərdişlərinin dəyişməsi, yüksək kalorili və emal olunmuş qidaların



geniş yayılması, oturaq həyat tərzi və metabolik sindromun artması bu xəstəliyin sürətlə yayılmasının əsas səbəbləri hesab edilir.

Qaraciyər yağlanmasının ən mühüm xüsusiyyətlərindən biri uzun müddət heç bir klinik əlamət vermədən inkişaf etməsidir. Məhz bu xüsusiyyət xəstəliyin ən təhlükəli cəhətlərindən biridir. Qaraciyər yağlanması vaxtında müəyyən edilmədikdə iltihabi prosesə, fibrozun inkişafına, daha sonrakı mərhələlərdə isə sirroza və hepatosellulyar karsinomaya qədər irəliləyə bilər. Buna görə də risk qruplarının vaxtında müəyyənləşdirilməsi və mütəmadi müayinələrin aparılması olduqca vacibdir.


O bildirib ki, qaraciyər və şəkərli diabet arasında da sıx əlaqə mövcuddur. Diabet qaraciyərin zədələnmə riskini artırdığı kimi, qaraciyər funksiyasının pozulması da gələcəkdə metabolik xəstəliklərin yaranmasına şərait yaradır. Bu səbəbdən belə pasiyentlərin kompleks yanaşma ilə izlənilməsi və müalicəsi vacib hesab olunur

H.Xıdırova qaraciyər xəstəliklərinin yaranmasında genetik amillərin rol oynadığını diqqətə çatdırıb. Onun sözlərinə görə, bəzi irsi metabolik xəstəliklər və genetik dəyişikliklər qaraciyərin erkən yaşlarda zədələnməsinə səbəb ola bilər. Bu baxımdan genetik məsləhət xidmətinin genişləndirilməsi, ailələrin maarifləndirilməsi və risk qruplarının vaxtında müayinədən keçirilməsi gələcək nəsillərin sağlamlığının qorunması üçün mühüm əhəmiyyət kəsb edir.

Həkim hepatitlərin də qaraciyər xəstəlikləri arasında mühüm yer tutduğunu bildirib. Hepatitlər müxtəlif səbəblərdən, o cümlədən virus infeksiyaları, metabolik pozğunluqlar, bəzi dərman preparatları, alkoqol istifadəsi və autoimmun proseslər nəticəsində yarana bilər.

"Virus hepatitləri arasında Hepatit B, Hepatit C və Hepatit D xüsusi əhəmiyyət daşıyır. Hepatit B infeksiyasına qarşı peyvəndləmə xəstəlikdən qorunmanın ən effektiv üsullarından biridir. Eyni zamanda Hepatit B-yə qarşı peyvənd Hepatit D infeksiyasından da qorunmağa kömək edir. Hepatit C-nin müasir birbaşa təsir göstərən antiviral preparatlarla müalicəsi bu infeksiyanın tam sağalmasına imkan verən mühüm tibbi nailiyyətlərdəndir", - deyə H.Xıdırova vurğulayıb.

Həkim qaraciyər xəstəliklərinin profilaktikasında sağlam həyat tərzinin əhəmiyyətini vurğulayıb. Balanslı qidalanma, normal bədən çəkisinin qorunması, müntəzəm fiziki aktivlik, alkoqol və nəzarətsiz dərman istifadəsindən uzaq durmaq əsas şərtlərdir.



Qapalı məkanlar respirator virusların yayılmasını asanlaşdırır

Payızın gəlişi və havaların dəyişməsinin uşaqların sağlamlığına, xüsusilə immun sisteminə necə təsir göstərməsi, uşaqların bu dövrdə hansı xəstəliklərə daha çox məruz qalması ilə bağlı suallarımızı I Uşaq xəstəlikləri kafedrasının assistenti Səbinə Zeynalova cavablandırıb.



O qeyd edib ki, payızın gəlişi ilə havanın temperaturu və rütubət dəyişir, uşaqlar isə yay tətilindən sonra məktəb və bağça kollektivlərinə qayıdırlar. Bu dövrdə respirator infeksiyaların sayında artımın müşahidə olunması təkcə soyuq hava şəraiti ilə əlaqədar deyil. Çünki soyuq hava birbaşa immuniteti zəiflətmir. Bunun əsas səbəbi uşaqların bir-biri ilə daha çox və yaxın təmasda olması, virusların yayılması üçün əlverişli şəraitin yaranmasıdır. Bu dövrdə uşaqlarda əsasən kəskin respirator virus infeksiyaları, qrip, COVİD-19, otit, bronxit kimi xəstəliklərə daha çox rast gəlinir. Xüsusilə qapalı məkanlarda uşaqların uzun müddət bir yerdə olması respirator virusların bir uşaqdan digərinə keçməsini asanlaşdırır. Buna görə də payız aylarında kəskin respirator infeksiyaların sayında artım müşahidə olunur.

Onun sözlərinə görə, havanın kəskin dəyişməsi, temperaturun enməsi və rütubətin artması bəzi uşaqlarda tənəffüs yollarının həssaslığını artırır. Eyni zamanda soyuq hava bronxial astması olan uşaqlarda öskürək, xırıltı və nəfəs darlığına səbəb ola bilər. Xüsusi risk qrupuna bronxial astması olan uşaqlar, ailəsində astma və ya allergiya olan uşaqlar, vaxtından əvvəl və ya aşağı çəki ilə doğulan uşaqlar aiddir.

Adi mövsümi soyuqdəymə ilə daha ciddi infeksiyanı fərqləndirməyin vacibliyinə də toxunan həkim-pediatr bildirib ki, mövsümi soyuqdəymə əksər hallarda yüngül keçir. Bu zaman uşağın vəziyyəti, adətən, qənaətbəxş olur və bir neçə gün ərzində tədricən yaxşılaşır. Əgər yüksək hərarət uzun müddət davam edirsə, uşaq çox halsızdırsa, nəfəsalma çətinləşirsə, davamlı və güclü öskürək varsa, uşaq maye qəbul edə bilmirsə, təkrar qusma və səpgi müşahidə olunursa, mütləq pediatra müraciət etmək lazımdır.

S.Zeynalova valideynlərə tövsiyələrini də verərək vurğulayıb ki, immun sisteminin sağlam fəaliyyətini dəstəkləmək ilk növbədə həyat tərzinin düzgün təşkilindən keçir. Ona görə də təmiz havada kifayət qədər vaxt keçirmək, balanslı və adekvat qidalanmaq, fiziki aktivlik, evdə havanın keyfiyyətini və rütubətini optimal saxlamaq, uşağı hava şəraitinə uyğun geyindirmək və şəxsi gigiyena qaydalarına əməl etmək olduqca zəruridir.

Oksidativ stress və yaşlanma: hüceyrələrdə nə baş verir?

Yaşlanma insan orqanizmində hüceyrə və toxumaların funksional imkanlarının tədricən azalması ilə xarakterizə olunan mürəkkəb bioloji prosesdir. Bu prosesdə oksidativ stress mühüm rol oynayan mexanizmlərdən biri hesab olunur.



Hüceyrələrdə yaranan reaktiv oksigen növlərinin miqdarı antioksidant müdafiə sisteminin imkanlarını aşdıqda, oksidativ stress meydana gəlir. Nəticədə DNT, zülallar, lipidlər və mitoxondrilər zədələnə, hüceyrə qocalması və xroniki iltihab prosesləri sürətlənə bilər.

Oksidativ stressin hüceyrə səviyyəsində nəticələri. Oksidativ stress hüceyrənin əsas struktur və funksional komponentlərinə zərər verə bilər. Reaktiv oksigen növləri DNT-də mutasiyalara və telomerlərin qısalmasına, zülallarda struktur dəyişikliklərinə, lipidlərdə isə membranların bütövlüyünü pozan peroksidləşmə proseslərinə səbəb olur. Mitoxondrilərin zədələnməsi enerji istehsalının azalmasına və daha çox reaktiv oksigen növünün yaranmasına gətirib çıxara bilər. Bu dəyişikliklər hüceyrə qocalmasını, apoptozu və xroniki iltihabi reaksiyaları sürətləndirir.

Antioksidant müdafiə sistemləri. Orqanizmdə oksidativ stressə qarşı həm fermentativ, həm də qeyri-fermentativ müdafiə mexanizmləri fəaliyyət göstərir. Superoksid dismutaza, katalaza və qlütation peroksidaza kimi fermentlər reaktiv oksigen növlərini daha az zərərli birləşmələrə çevirir. Qlütation, C və E vitaminləri, karotinoidlər və digər bioloji aktiv maddələr də antioksidant müdafiədə iştirak edir. Bu sistemlərin səmərəli fəaliyyəti hüceyrə komponentlərinin qorunmasına və yaşlanma ilə əlaqəli zədələnmələrin azalmasına kömək edir.

Mümkün profilaktik yanaşmalar. Oksidativ stressin azaldılması üçün balanslaşdırılmış qidalanma, müntəzəm fiziki aktivlik və kifayət qədər yuxu mühüm əhəmiyyət daşıyır. Tərəvəz, meyvə, paxlalılar, tam taxıllar və qoz-fındıqla zəngin qidalanma antioksidant maddələrin qəbulunu artırır. Siqaretdən uzaq durmaq, alkoqol qəbulunu məhdudlaşdırmaq və ətraf mühitin zərərli təsirlərindən qorunmaq da profilaktik baxımdan faydalıdır. Antioksidant əlavələr isə yalnız həkim məsləhəti ilə qəbul edilməlidir, çünki onların nəzarətsiz istifadəsi arzuolunmaz təsirlərə səbəb ola bilər.

Nəticə. Oksidativ stress yaşlanma prosesinin mühüm hüceyrə mexanizmlərindən biridir. Onun təsiri DNT, zülallar, lipidlər və mitoxondrilərin zədələnməsi ilə nəticələnə bilər. Antioksidant müdafiə sistemlərinin dəstəklənməsi və sağlam həyat tərzinin qorunması hüceyrə zədələnmələrinin azalmasına və sağlam yaşlanmanın təşviqinə kömək edir.

Günay MANSUROVA
Əczaçılıq toksikologiyası və kimya kafedrasının müəllimi

Rezidentimiz Londonda elmi araşdırmasını təqdim edib



Oftalmologiya kafedrasının III kurs rezidenti Xumar İbrahimova Avropa Katarakta və Refraktiv Cərrahlar Cəmiyyətinin Londonda keçirilən 44-cü – ESCRS-2026 konqresində iştirak edib.

Onun təqdim etdiyi elektron posterdə dar bəbəkli pasiyentlərdə kataraktanın fakoemulsifikasiyası zamanı yaranan cərrahi çətinliklər, mümkün intraoperativ risklər və bəbəyin bimanual dartılması texnikasının klinik hallarda tətbiqi nəzərdən keçirilib.

Təqdimatda bu texnikanın əməliyyat sahəsinin genişləndirilməsinə, cərrahi manipulyasiyaların daha nəzarətli aparılmasına və mümkün intraoperativ ağırlaşmalar riskinin azaldılmasına verdiyi imkanlar klinik nümunələr əsasında göstərilib.

Sentyabr ayı bütün dünyada Ümumdünya Leykemiya (qan xərçəngi) Maarifləndirmə Ayı kimi qeyd olunur. Burada əsas məqsəd leykoz və digər hematoloji xəstəliklər barədə məlumatlılığın artırılması, diqqətin erkən diaqnostika, müasir müalicə strategiyaları və hematologiya sahəsində aparılan elmi araşdırmaların əhəmiyyətinə yönəldilməsidir.

Əməkdaşımız beynəlxalq hematoloji tədbirlərdə iştirak edib



Tədris Terapevtik Klinikanın həkim-hematoloqu, II Daxili xəstəliklər kafedrasının assistenti Şəhla Şabanova "Leykemiya ilə mübarizə ayı" çərçivəsində hematologiyanın müxtəlif istiqamətlərini əhatə edən yerli və beynəlxalq elmi tədbirlərdə panelist və məruzəçi kimi iştirak edib.


Onun AHMİB-in İdarə Heyətinin üzvü kimi qatıldığı tədbirdə "XML-də yeni nəsil müalicə strategiyaları" mövzusunda müzakirələr aparılıb. Tədbirdə müasir hematologiyada innovativ terapevtik yanaşmalar, fərdiləşdirilmiş müalicə imkanları və yeni nəsil preparatların klinik praktikadakı rolu ilə bağlı aktual məsələlərə diqqət yetirilib.

Sentyabr ayındakı elmi fəaliyyətini Ankarada keçirilən XV Ulusal Geriatrik Hematoloji Konqresində davam etdirən Ş.Şabanova konqres çərçivəsində "Multipl mielom xəstələrində kövrəklik (frailty) şkalalarının toksiklik, sağqalım və müalicəyə uyğunluq üzərinə təsiri" mövzusunda elmi sessiyada panelist kimi iştirak edib.

Şimali Kiprdə keçirilən V Kök Hüceyrə Transplantasiyası və Hüceyrəvi Müalicələr Konqresində də Ş.Şabanovanın məruzəsi dinlənilib. Konqres iştirakçılarının marağına səbəb olan "Solid və neyroendokrin şişlərdə kök hüceyrə transplantasiyasına göstərişlər" mövzusunda məruzədə kök hüceyrə transplantasiyasının ənənəvi hematoloji göstərişləri ilə yanaşı, seçilmiş solid və neyroendokrin şişlərdə tətbiq imkanları, müasir yanaşmalar, xəstə seçimi və bu istiqamətdə mövcud elmi perspektivlər barədə məlumat verilib.

Hərbi tibb fakültəsinin II kurs tələbələri Tükəzban Zalova, Zəhra Nəzərova və Aytən Abdulla 32-ci "Poliqon" - gənclərin hərbi-vətənpərvərlik düşərgəsində iştirak ediblər.

Tələbələrimiz "poliqon"da: hərbi hazırlıq sınaqdan keçirilib



Onlar hərbi-idman və praktik hazırlıq məşğələlərinə qatılıb, müxtəlif yarış və təlimlərdə öz bacarıqlarını göstəriblər.

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı və 120 gəncin iştirakı ilə Quba Olimpiya İdman Təlim-Tədris və İstirahət Kompleksində keçirilən tədbirin əsas məqsədi gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi, praktik və hərbi-idman hazırlığının gücləndirilməsi, komanda işi və liderlik bacarıqlarının inkişaf etdirilməsi olub.

Proqram çərçivəsində Fövqəladə Hallar və Daxili İşlər nazirlikləri idman cəmiyyətinin əməkdaşları, eləcə də Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçuları tərəfindən müxtəlif hazırlıq məşğələləri keçirilib. İştirakçılar "Səmti müəyyənetmə oyunu"nda da bilik və bacarıqlarını sınayıblar.

Düşərgə zamanı "Vətənpərvərlik nədir?" mövzusunda təqdimatlar hazırlanıb, Vətən müharibəsinə həsr olunmuş videoçarxlar nümayiş etdirilib.

Allah rəhmət eləsin!

II Uşaq xəstəlikləri kafedrasının kollektivi ATU-nun Tədris Terapevtik Klinikasının baş həkimi, t.ü.f.d, assistent Fəridə Hacıyevaya anası

Möhtərəm Hacıyevanın

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları Sədaqət Qurbanovaya qardaşı

Söhbət Qurbanovun

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın baş müəllimi Həqiqət Mehdiyevaya bacısı

Hüzrət xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları uzun illər Azərbaycan dili kafedrasında çalışan, dosent Məfkurə Hüseynovaya həyat yoldaşı

Yaşar müəllimin

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları Azərbaycan dili kafedrasının dosenti Pərvin Əzizovaya anası

Validə xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0016
Sayı 800